**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT**
**MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**VASİF SƏTDAR OĞLU NOVRUZOV**

# AKADEMİK KAMAL TALIBZADƏNİN ELMİ-NƏZƏRİ İRSİNDƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ

**6219.01 – Kulturologiya və onun ümumi məsələləri**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Azad Mövlud oğlu Nəbiyev**<br>*AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor* |
| **Rəsmi opponentlər:** | **Sakit Yəhya oğlu Hüseynov**<br>*fəlsəfə üzrə elmlər doktoru*<br><br>**Sədaqət Ağasəfər qızı Əliyeva**<br>*kulturologiya üzrə fəlsəfə doktoru, dosent* |
| **Aparıcı təşkilat**: | **Bakı Slavyan Universiteti** |

Dissertasiyanın müdafiəsi " 10__ " " ____12__ " 2015-ci ildə, saat ___da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin FD.02.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1065, Bakı, Həsən bəy Zərdabi 39[a], Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "__________ " 2015-ci ildə göndərilmişdir.

FD.02.091 Dissertasiya Şurasının
elmi katibi, kulturologiya üzrə
fəlsəfə doktoru, dosent: **F.R.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bəşər mədəniyyəti sahəsində qazanılmış təcrübələr sübut edir ki, klassik insani dəyərlərin yaradıcısı xalqdır. Bu baxımdan Azərbaycanda həyata keçirilən mədəniyyət siyasəti milli və bəşəri dəyərlərin mühafizəsi və transformasiyası münbit zəmin yaradır. Belə bir mədəniyyət siyasəti xətti də öz növbəsində milli-mənəvi dəyərlərə kölgə salmadan, mütərəqqi tarixi təcrübəyə söykənərək mədəni və yaradıcı irsə dair kulturoloji tədqiqatlar aparılmasını zəruri edir. Bu sahədə əldə ediləcək nailiyyətlər, həm də Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir. Milli həyatın inkişafında mədəniyyət faktorunun mühüm roluna dair araşdırmaların əhəmiyyəti Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatında da vurğulamışdır[1]. Tarixi-mədəni irsə konseptual yanaşma ictimai və humanitar elm sahələri qarşısında mövcud bədii və ictimai fikir tarixini, ümumən mədəniyyət tarixini düzgün müəyyənləşdirilmiş milli konsepsiya işığında təqdim edilməsini tələb edir. Akademik Ramiz Mehdiyevin vurğuladığı kimi: "Dünya elminə inteqrasiya mərhələsində olduğumuz indiki vaxtda ictimai və humanitar elmlər sahəsində islahatların başlıca spesifikası müəyyənləşdirilməlidir. Bu elmlər hazırkı fazanın əsas xüsusiyyətlərini araşdırmalı və yeni ideyalar irəli sürməlidir"[2]. Bu mənada mədəni-mənəvi köklərimizə qayıdış istiqamətində, milli mənsubiyyətimizin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də elmi-nəzəri əsaslara malik olmalıdır. Mədəniyyətimizin ən qaranlıq səhifələrindən birinin yaxın keçmişimizlə – XX əsrin tarixi-kulturoloji hadisələri və ictimai fikri ilə bağlılığını nəzərə alsaq, o zaman bu dövrün obyektiv araşdırılması tədqiqatçılar qarşısında müəyyən vəzifələr qoyur. Azərbaycanın ədəbi-mədəni irsini araşdıran, o cümlədən ədəbi tənqidin ilk sistemli elmi tarixini yazan və tənqidi elm səviyyəsinə yüksəldən akademik Kamal Talıbzadə yaradıcılığının kulturoloji aspektdən tədqiqi də, bu mənada istisna deyildir. Xüsusilə qeyd edilməlidir ki, XX əsrin Azərbaycan mədəni həyatı K.Talıbzadənin elmi-nəzəri tədqiqatlarında dolğunluğu ilə öz əksini tapmışdır. XX əsrin əvvəllərindəki ədəbi-mədəni irsə münasibətdə obyektivlik və subyektivlik amillərinin araşdırılması, tarixi və elmi-mədəni

---

[1] Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. "Ədəbiyyat qəzeti", 13 avqust 2001-ci il.
[2] Mehdiyev R. İctimai və humanitar elmlər: zaman kontekstində baxış // "Fəlsəfə və sosial-siyasi elmlər", 2009, № 4, s.32.

gerçəkliyin sovet ideoloji prinsiplərindən irəli gələn tədqiq və təhlil metodologiyası onun yaradıcılığı üçün xasdır. Yaradıcılığındakı müəyyən təzadlı məqamlara baxmayaraq, K.Talıbzadənin yaradıcılıq irsi, onun elmi-mədəni fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 13 avqust 1998-ci il tarixli fərmanı ilə Kamal Abdulla Şaiq oğlu Talıbzadə "Şöhrət" ordeni ilə təltif edilmişdir[3]. Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin 29 aprel 1998-ci il tarixli (№ 14/13) qərarı isə akademik K.A.Talıbzadənin 75 illiyi haqqındadır. Bu qərarda vurğulanırdı ki, K.Talıbzadənin elmi fəaliyyəti çoxsahəlidir. Onun Moskvada beynəlxalq miqyaslı nəşrlər olan "Müxtəsər ədəbiyyat ensiklopediyası", "Müxtəsər sovet ensiklopediyası", "Teatr ensiklopediyası", "Dünya ədəbiyyatı tarixi", həmçinin Bakıda "Azərbaycan sovet ensiklopediyası" səhifələrində Azərbaycan ədəbiyyatı ilə bağlı çoxsaylı oçerkləri dərc olunmuşdur. K.Talıbzadənin elmi rəhbərliyi ilə 30-dan artıq doktorluq və namizədlik dissertasiyası müdafiə edilmişdir[4].

Azərbaycanın istiqlaliyyətə qovuşması ilə mədəniyyət tariximizə münasibətdə baş vermiş dəyişikliklər nəticəsində elmi-nəzəri irsimizlə bağlı mövcud stereotiplər də aradan qaldırıldı və milli kulturoloji təmələ söykənən yeni baxışlar sisteminin əsası qoyuldu. Belə bir tarixi məqamda ictimai və humanitar irsimizin obyektiv meyarlarla araşdırılaraq xalq çatdırılmasında vəzifələrini məsuliyyətlə dəyərləndirən alimlər içərisində K.Talıbzadə də vardır ki, onun mədəniyyət tariximizdəki xidmətlərinin müəyyənləşdirilməsi və əsərlərinin kulturoloji mahiyyətinin açıqlanması aktuallıq kəsb edir.

**Mövzunun işlənmə dərəcəsi.** Müasir tarixi-kulturoloji irsimizin tədqiqi təsdiqləyir ki, ötən əsrin 70-80-ci illərdən etibarən Ziya Bünyadov, Qədim Mustafayev, Əziz Mirəhmədov, Mövsüm Əliyev, Ağarəfi Zeynalzadə kimi tədqiqatçı alimlərlə yanaşı Kamal Talıbzadənin də araşdırmalarında XX əsrin əvvəllərinin tarixi-mədəni hadisələri və ziyalılarımızın şəxsiyyəti, həyat və fəaliyyətləri, yaradıcılıqları ilə bağlı əhəmiyyətli məsələlər işıqlandırılmışdır. Bu tədqiqatların bir qismində dəyərləndirmə meyarları sovet ideologiyası prinsiplərinə uyğunlaşdırılmış şəkildə olmuş olsa belə, burada millətpərvər zənginlərimizin, mütərəqqi

---

[3] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Kamal Abdulla Şaiq oğlu Talıbzadənin "Şöhrət" ordeni ilə təltif edilməsi ilə bağlı 13 avqust 1998-ci il tarixli fərmanı. "Xalq qəzeti", 15 avqust 1998-ci il, № 217.

[4] Salmanov Şamil. Akademik Kamal Talıbzadə. Bakı: Ozan, 1998, s.3-6.

ruhlu ziyalılarımızın fəaliyyət və yaradıcılıqları əks mövqedən təhlil və şərh edilsə də, hər halda, bu əsərlər vasitəsilə həmin şəxsiyyətlər haqqında müəyyən məlumatlar əldə edilmiş, hər kəs bu yazılardan öz elmi dünyagörüşü səviyyəsində bəhrələnmişdir. Bu yazılarda nə qədər subyektiv məqamlar, yanlışlıqlar, təhriflər olsa da, həmin mövzular məhz bu cəhdlərin sayəsində tədqiqat obyekti kimi elmi fikri məşğul etmişdir[5].

Bu əsərlərdən başqa, tədqiq edilən dövrün ictimai-siyasi, elmi-mədəni, ədəbi-bədii, pedaqoji və publisistik irsinin araşdırıldığı ensiklopedik nəşrlər də vardır. XX əsrin kulturoloji fikir tarixinin bəzi məsələləri ideoloji yanaşmalar səbəbindən təhrif olunduğundan və indiyədək lazımınca araşdırılmadığından bu nəşrlərdə verilən məqalələrin böyük əksəriyyəti tədqiqat xarakteri daşıyır və yeni elmi baxışı əks etdirir. Çağdaş Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri və Talıbzadələr şəcərəsinin iki böyük siması – Abdulla Şaiq və Yusif Ziya Talıbzadənin son illərə qədər gizlin qalmış, araşdırılmamış məqamları özündə ehtiva edən bütün nəşrlər isə bilavasitə Kamal Talıbzadənin rəhbərliyi ilə hazırlanmışdır. Abdulla Şaiqin anadan olmasının 120 illik yubileyinə həsr olunmuş konfransın materiallarının da daxil edildiyi toplu ("Mədəniyyət dünyası", II buraxılış, 2001), Şamil Vəliyevin "Füyuzat ədəbi məktəbi"[6], Aybəniz Kəngərlinin "Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük" [7] və "Azərbaycan" (1918-1920) qəzetində ədəbiyyat məsələləri" [8], Alxan Bayramoğlunun "Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat"[9], Minaxanım Əsədlinin tərtib etdiyi "Arazdan Turana"[10] və s. kitabların redaktoru və ya ön sözün müəllifi, habelə Mübariz Süleymanlının "XX əsrin əvvəllərində Azərbaycan

---

[5] Süleymanlı M.A. XIX – XX əsrlər Azərbaycan kulturoloji irsinin mükəmməl tədqiqatçısı – Əziz Mirəhmədov (Ə.Ağaoğlu yaradıcılığına dair çap olunmamış bəzi əlyazmaları əsasında) "Mədəniyyət dünyası", XIII buraxılış, s.33.

[6] Vəliyev (Körpülü) Ş. Füyuzat ədəbi məktəbi. Bakı: Elm, 1999.

[7] Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002.

[8] Əliyeva (Kəngərli) A. "Azərbaycan" (1918-1920) qəzetində ədəbiyyat məsələləri. Bakı: Gənclik, 2002.

[9] Bayramoğlu A. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı: Elm, 2003.

[10] Abdulla Şaiq. Arazdan Turana. Bakı: Nurlan, 2003.

kulturoloji fikri" mövzusunda doktorluq dissertasiyasının [11] elmi məsləhətçisi məhz Kamal Talıbzadə olmuşdur.

K.Talıbzadə yaradıcılığı son zamanlar bir sıra tanınmış alimlərimiz tərəfindən tədqiq edilmiş, sanballı monoqrafiyalar və elmi məqalələr ortaya qoyulmuşdur. Ümumilikdə haqqında 200-dən artıq məqalə, onlarla xatirələr yazılmış, Şamil Salmanovun "Akademik K.Talıbzadə", Nizaməddin Şəmsizadənin "Türk təfəkkür məcrasında"[12], Təranə Rəhimlinin "Böyük nəslin layiqli yadigarı" [13] monoqrafiyaları çap olunmuşdur. Lakin bu tədqiqatlarda K.Talıbzadə görkəmli bir ədəbiyyatşünas və tənqidçi kimi araşdırılmışdır. "Akademik Kamal Talıbzadənin elmi-nəzəri irsində mədəniyyət məsələləri" adlı tədqiqat işində iddiaçının qarşısına qoyduğu əsas məqsəd isə K.Talıbzadənin yaradıcılığında mədəniyyət məsələlərini araşdırmaq, onun elmi-nəzəri irsini kulturoloji aspektdən nəzərdən keçirməkdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Araşdırmanın əsas məqsədi K.Talıbzadənin elmi-mədəni yaradıcılığını və ictimai fəaliyyətini tədqiq etmək, Azərbaycan kulturoloji fikri tarixindəki yeri və rolunu müəyyənləşdirməkdən ibarətdir. Habelə K.Talıbzadənin kulturoloji irsini XX əsrin mürəkkəb və ziddiyyətli hadisələri fonunda öyrənmək və müqayisəli təhlillər yolu ilə elmi-tənqidi baxımdan dəyərləndirmək dissertasiya işinin əsas məqsədlərindəndir. Elmi və ictimai-mədəni fəaliyyətini əsasən paralel davam etdirən K.Talıbzadənin kulturoloji baxışlarını dövrün mədəniyyət prosesləri kontekstində təhlil etmək də tədqiqatın əsas məqsədlərindən birini təşkil edir.

K.Talıbzadənin zəngin həyat təcrübəsinin və kulturoloji görüşlərinin mənimsənilməsi və bu irsdən yeni nəslin milli-vətənpərvərlik ruhunda tərbiyələndirilməsində yararlanmaq üçün tədqiqat işində aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

– K.Talıbzadənin kulturoloji baxışlarını şərtləndirən ictimai-mədəni mühitin səciyyəvi cəhətlərinin araşdırmaq. K.Talıbzadənin milli-mədəni irsə münasibətinin ictimai və kulturoloji aspektlərini müəyyənləşdirmək. K.Talıbzadə şəxsiyyətinin formalaşmasında varislik amilinin əhəmiyyətini elmi şəkildə əsaslandırmaq. K.Talıbzadə yaradıcılığında ədəbi-tənqidi fikrin kulturoloji təhlili məsələsinə aydınlıq gətirmək. Mədəniyyətin ictimai

---

[11] Süleymanlı M.A. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri. Fəlsəfə üzrə elmlər doktoru ...dis. Bakı: AMEA Mərkəzi Elmi Kitabxanası, 2014.
[12] Şəmsizadə N. Türk təfəkkürü məcrasında. Bakı: Təhsil, 1998.
[13] Rəhimli Təranə. Böyük nəslin layiqli yadigarı. Bakı: ADPU, 2002.

vəzifəsinə, həyatla əlaqəsinə və ədəbi irs probleminə dair K.Talıbzadənin kulturoloji baxışlarının sistemli təhlilini vermək;

– K.Talıbzadə yaradıcılığında Azərbaycan kulturoloji fikir tarixinə münasibətin təzadlı məqamlarını müəyyənləşdirmək. Onun yaradıcılığının tarixi-müqayisəli təhlili yolu ilə mədəniyyətə yeni baxışın fərqli və ortaq cəhətlərini aşkarlamaq. K.Talıbzadənin elmi-mədəni fəaliyyətini sovet dövrünün ideoloji prosesləri kontekstində dəyərləndirmək, onun dil və mətbuat məsələlərində tənqidi-müqayisəli mövqeyinə aydınlıq gətirmək. Kulturoloji fikrin yeni aspektlərini nəzərdən keçirərkən K.Talıbzadənin XX əsrin əvvəllərindəki mədəni proseslərə fərqli baxışının elmi təhlilini vermək;

– K.Talıbzadənin elmi-mədəni fəaliyyətini özündə əks etdirən yaradıcılıq proseslərini tarixi-kulturoloji təcrübə kontekstində araşdırmaq. K.Talıbzadənin yaradıcılığında dramaturgiya və teatr məsələlərinin təhlili səviyyəsini müəyyənləşdirmək. K.Talıbzadənin muzeyşünaslıq fəaliyyətinin elmi, mədəni və tarixi aspektlərinin elmi və praktik tərəflərinə diqqət yetirmək. Çağdaş Azərbaycan mədəniyyətinin aktual problemləri baxımından qarşıda duran vəzifələrə dair K.Talıbzadənin mövqeyini ümumiləşdirmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Kamal Talıbzadənin zəngin elmi, mədəni və ictimai irsi təşkil edir. Bu məqsədlə, dissertasiyada tarixi, kulturoloji, fəlsəfi və filoloji aspektdə yazılmış monoqrafik araşdırmalar, dissertasiyalar və problematik məqalələr tədqiqata cəlb edilmiş, dövri mətbuat və arxiv sənədlərindən istifadə edilmişdir. K.Talıbzadənin kulturoloji irsini ümumbəşəri və milli-mədəni proseslər fonunda araşdırmaq, onun iştirakçısı olduğu mədəniyyət hadisələrini tarixi proseslər kontekstində öyrənmək tədqiqatın əsas predmetini təşkil edir.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları və mənbəşünaslıq bazası.** Dissertasiya işinin nəzəri və metodoloji əsasını tarixilik, varislik, məntiqilik, sistemlilik və müqayisəli təhlil prinsipləri təşkil edir. Çoxsaylı mənbələr əsasında yazılmış tədqiqatda konkret tarixi fakt və təhlillərə istinad edilmişdir. Tarixi hadisə və proseslərin işıqlandırılmasında xronoloji ardıcıllığın saxlanılmasına xüsusi diqqət yetirilmiş, bütün mənbələrə elmi-tənqidi yanaşma metodundan istifadə edilmişdir. Dissertasiyada kulturoloji fikrin elmi-nəzəri qənaətlərindən, mövzu ilə bağlı tədqiqat müəlliflərinin fikir və mülahizələrindən, analoji araşdırmaların təcrübə və nəticələrindən

istifadə edilmişdir. Habelə dissertasiyanın mənbəşünaslıq bazasını arxiv sənədləri və dövri mətbuat təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Bu gün Azərbaycan dövlətinin həyata keçirtdiyi elm siyasəti milli ideologiya və dövlətçilik tarixi, mədəniyyət və fəlsəfə, politologiya və sosiologiya, mədəniyyətşünaslıq və hüquq sahələrinin verdiyi təklif, konsepsiya və proqramlarla sıx bağlıdır[14]. Yeni nəslin kulturoloji təfəkkür mədəniyyətinin formalaşması həm də tarixi həqiqətlərin üzə çıxarılması ilə sıx surətə bağlıdır. Bu mənada Azərbaycanın kulturoloji fikir tarixində ən mühüm dövrlərdən biri XX əsrdir ki, bu dövrdə yaranmış mürəkkəb şəraitin, bir-birini əvəzləyən siyasi-ideoloji və elmi-mədəni mənzərənin kulturoloji baxımdan işıqlandırılması böyük əhəmiyyətə malikdir.

Son illərdə Azərbaycanda mədəniyyətə dair bir sıra mühüm beynəlxalq tədbirlər, o cümlədən milli-mədəni irsin tədqiqinə və kulturoloji istiqamətli elmi araşdırmalara stimul vermiş kulturoloji forumlar, layihə və tədbirlər, elmi konfrans və simpoziumlar keçirilmişdir ki, bu prosesdə şəxsiyyət amili həmişə diqqət mərkəzində olmuşdur. Xüsusilə də, Azərbaycan dövlətinin həyata keçirdiyi mədəniyyət siyasətində görkəmli şəxsiyyətlərin yaradıcılıq irsinə göstərilən münasibət təqdirəlayiqdir. Məhz belə bir münasibət bu istiqamətli tədqiqatları da stimullaşdırır. Tarixi simalarla yanaşı, müasiri olduğumuz görkəmli elm xadimlərinin kulturoloji irsinin araşdırılmasını aktuallaşdıran amillərdən birini də bununla izah etmək lazımdır ki, milli-mədəni dəyərlərimizin mühafizəsi və müstəqilliyimizin bərpası uğrunda mübarizə tarixinin sovet təhriflərindən, saxtalaşdırmalarından təmizlənməsi işi hələ də tamamilə başa çatdırılmamışdır. O cümlədən, mövzuya dair bəzi araşdırmaların aparılmasına baxmayaraq K.Talıbzadənin yaradıcılıq irsinin öyrənilməsi işini də qənaətbəxş hesab etmək olmaz. Düzdür, son illərin filoloji istiqamətli tədqiqatlarında K.Talıbzadənin yaradıcılıq irsi ayrıca tədqiqat obyekti kimi lazımınca araşdırılmışdır. Eyni zamanda bir sıra alimlərin əsərlərində K.Talıbzadənin elmi-tənqidi təhlilini verdiyi bir sıra kulturoloji məsələlər fərqli aspektlərdən öyrənilmiş və mədəniyyətin müxtəlif problemlərinə həsr edilmiş dissertasiyalarda XX əsr kulturoloji irsinə dair müəyyən təhlillər də yer almışdır. Lakin bu tədqiqatlarda K.Talıbzadə yaradıcılığının kulturoloji aspektlərinə və onun tədqiq etdiyi mədəniyyət

[14] Mehdiyev R. İctimai və humanitar elmlər: zaman kontekstində baxış // "Fəlsəfə və sosial-siyasi elmlər", 2009, № 4, s.32.

hadisələrinə ya heç toxunulmamış, ya da çox az yer verilmişdir. Bu mənada tədqiq edilən mövzu indiyədək kulturoloji kontekstdə sistemli və monoqrafik şəkildə araşdırılmamışdır. Tədqiqat işinin elmi yeniliyi də problemə belə bir sistemli kulturoloji yanaşma ilə müəyyən olunmuş və əsasən aşağıdakı müddəalarda öz əksini tapmışdır:

– Azərbaycan kulturoloji fikrinə dəyərli töhfələr vermiş tarixçi, filosof, ədəbiyyatşünas, etnoqraf, dilçi, sənətşünas və s. alimlərimiz özlərini kulturoloq kimi təqdim etməsələr də, bu sahədə əhəmiyyətli işlər görmüşlər ki, bu sırada akademik Kamal Talıbzadənin adı birincilər cərgəsində çəkilməlidir. Bu mənada Kamal Talıbzadə ilk dəfə olaraq məhz bu dissertasiyada bir kulturoloq alim və mədəniyyət xadimi kimi təqdim edilmişdir;

– Mədəniyyət tariximizin son bir əsrinə (xüsusilə, yetmiş il ərzində ən çox təhriflərə məruz qalmış XX əsrin əvvəllərinə) aid elmi-mədəni prosesləri obyektiv tədqiq edərək milli irsimizi xalqa gerçək şəkildə çatdırmaq vəzifəsi bir sıra alimlərimizə həm tarixi-mədəni irsə, həm də öz araşdırmalarına yenidən nəzər salmaq şansı verdi. Həmin alimlərdən bir qismi sovet dövründə "bilərəkdən" təhrif etdikləri mövzulara yenidən qayıtdılar və bu dəfə, buraxılmış səhvləri etiraf etməklə, tədqiqatlarında daha obyektiv olmağa çalışmaqla müqəddəs bir işə girişdilər. Bu şansdan vaxtında bəhrələnərək əvvəlki elmi yaradıcılığını tənqidi surətdə yenidən saf-çürük edən alimlər içərisində K.Talıbzadənin adı xüsusilə qeyd edilməlidir. Analitik təfəkkür tərzinin, elmi yaradıcılıq eşqinin hələ tükənmədiyini operativ surətdə nümayiş etdirən K.Talıbzadə bu vaxta qədər yazdıqlarının, xüsusilə, daha çox siyasi-ideoloji təsirlərə məruz qalmış əsərlərinin elmi-tənqidi təhlili üçün özündə güc tapdı. O, öz etirafları ilə zəngin yaradıcılıq irsi ortaya qoymuş böyük bir alimlər nəslinin nümayəndələrinə nümunə göstərdi. Əsas qismi siyasi-ideoloji təzyiqlər səbəbindən buraxılmış səhvlərin alimanə bir surətdə etirafı gənc tədqiqatçıların yoluna işıq saçdı. Təqdim olunan dissertasiya işində, K.Talıbzadənin kulturoloji irsi ilk dəfə olaraq məhz bu aspektdən öyrənilmişdir;

– XX əsr Azərbaycan kulturoloji fikrinin tədqiqi həm tarixi təcrübənin öyrənilməsi, həm də müasir Azərbaycanda mədəniyyət quruculuğu və dünyaya inteqrasiya prosesinin uğurla həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir ki, K.Talıbzadənin kulturoloji fəaliyyətini əks etdirən dissertasiya işi həm mövzunun ilk dəfə kulturoloji aspektdən təhlili, həm də bu vaxta kimi ayrıca tədqiqat obyektivinə çevrilməmiş məsələlərin araşdırmaya cəlb edilməsi ilə fərqlənir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırma zamanı əldə olunan ümumiləşdirilmiş elmi qənaət və nəticələr qazanılmış tarixi təcrübənin tətbiqi baxımından praktiki mahiyyət kəsb edir. Tədqiqat işi təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma üsulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri əhəmiyyət daşıyır. Dissertasiya işi təkcə kulturoloqlar üçün deyil, həmçinin mədəniyyətin müxtəlif problemlərini araşdıran tədqiqatçılar üçün də faydalı bir elmi mənbə ola bilər. Araşdırma zamanı əldə edilmiş elmi nəticələrdən "Kulturologiya", "Mədəniyyət tarixi və nəzəriyyəsi", "İctimai fikir tarixi" və s. fənlərin, habelə mədəniyyətlə bağlı kursların tədrisində, humanitar profilli ali və orta ixtisas məktəblərinin müvafiq dərs proqramlarında istifadə etmək olar.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın nəticələri Azərbaycan və Türkiyənin müxtəlif elmi nəşrlərində ("Məruzələr" (AMEA), "Mədəniyyət dünyası", "Qobustan", "Müasir mədəniyyətşünaslıq", "Mədəni-maarif", "Azərbaycan arxeologiya və etnoqrafiyası", "Sosyoloji Yıllığı", "Türk Dünyası İncelemeleri Dergisi" və s.) dərc olunmuş məqalələrdə öz əksini tapmışdır. Habelə beynəlxalq elmi konfrans və simpoziumlarda dissertantın mövzu üzərindəki axtarışlarını əks etdirən məruzələri dinlənilmişdir.

**Tədqiqatın strukturu.** Tədqiqatın quruluşu və həcmi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət heyətinin qərarı ilə təsdiq edilmiş "Dissertasiyaların tərtibi qaydaları"na uyğun olaraq hazırlanmışdır. Dissertasiya işi giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **I fəsli "K.Talıbzadənin milli-mədəni irsə münasibətinin ictimai və kulturoloji aspektləri"** adlanır. Bu fəslin **"K.Talıbzadə şəxsiyyətinin formalaşmasında mədəni mühit və varislik amili"** başlıqlı ilk yarımfəslində qeyd edilir ki, K.Talıbzadənin formalaşmasında, bir tənqidçi kimi yetişməsində onun doğulub boya-başa çatdığı mühitin və ailədən, gen ilə gələn varisliyin çox böyük əhəmiyyəti olmuşdur. Varislik məsələsi isə həmişə, bütün dövrlərdə maddi və mənəvi mədəniyyətin bütün sahələrində müasirliklə sıx surətdə bağlı olan əhəmiyyətli problemlərdən biri olmuşdur. K.Talıbzadənin ulu babası

Süleyman Talıbzadə tanınmış din xadimi olmuşdur. Babası Axund Mustafa Talıbzadə daha mükəmməl dini təhsil almış, Zaqafqaziya Şeyxülislamının müavini, Qafqaz vilayətinin baş qazisi vəzifələrində çalışmış, çox mükəmməl şəriət dərsliyi yazmış, dini və maarifçilik fəaliyyəti ilə dövrünün qabaqcıl ziyalılarından biri kimi tanınmışdır. K.Talıbzadənin əmisi Yusif Ziya Talıbzadə və atası Abdulla Şaiq də ilk təhsillərini dini məktəblərdə almış, sonradan Yusif Ziya bu istiqamətdə daha da irəli getmişdir. Lakin ataları Axund Mustafa dövrün qabaqcıl elm, maarif və mədəniyyət xadimləri ilə sıx dostluq münasibətləri saxladığı üçün, təbii ki, uşaqları Yusif və Abdulla da dini təhsillə yanaşı dünyəvi elmlərlə də məşğul olmuş və bu istək onların hər ikisinin maarif xadimi kimi yetişmələrinə imkan vermişdir. Əmisi və atasının bu ənənəsini davam etdirən K.Talıbzadənin elmi-mədəni yaradıcılığı da milli-mənəvi özünüdərk nümunəsi sayıla bilər. Mədəni irsin Azərbaycan sovet ədəbiyyatşünaslığında təqdimatı, eləcə də müasirlik probleminə yanaşmalarda diqqətdən kənarda qalmış mövzuların açılışına cəhdləri – onun varislik ənənəsinin mühafizəsindəki xidmətləri kimi dəyərləndirilə bilər. K.Talıbzadənin ədəbi tənqid tarixi yaratmaq sahəsindəki çalışmaları da varislik ənənəsinin mühafizəsinə yönəldilmişdir.

Heç şübhəsiz, Kamal Talıbzadə şəxsiyyətinin formalaşmasında onu əhatə edən ədəbi mühitin də böyük rolu olmuşdur. Bütün bu ziyalılar nəsli ilə ünsiyyəti, onların bir çoxu ilə aralarındakı yaş fərqinin olmasına baxmayaraq dostluq və yoldaşlıq münasibətləri və atasının şəxsi kitabxanasındakı ən gözəl ədəbiyyat nümunələri ilə təması K.Talıbzadəni gələcəyin böyük bir tənqidçi alimi kimi yetişdirirdi. O, özü etiraf edirdi ki, "bu mikromühit, görünür, məndə ədəbi tənqid, ədəbiyyatşünaslıq sahəsinə meyl oyadan əsas ilk amillərdən biri olmuşdur". K.Talıbzadə bütün mənalı həyatı boyu Talıbzadələr nəslinin həm ağrı-acısına varislik etmiş, həm də bu nəslin ziyalılıq ənənəsini layiqincə davam etdirmişdir. Onun filoloq ixtisasını seçməsi də, sonralar bu sahəni araşdıran görkəmli bir alim kimi yetişməsi də atası A.Şaiqdən gələn varislik ənənəsinin davamı idi.

I fəslin **"K.Talıbzadə yaradıcılığında ədəbi-tənqidi fikrin kulturoloji təhlili"** başlıqlı ikinci yarımfəslində vurğulanır ki, K.Talıbzadə mədəniyyətin müxtəlif problemləri, tənqid tarixi, ədəbiyyatşünaslıq, müasir ədəbi proses, ədəbi əlaqələr və s. mövzularda yazdığı çoxsaylı əsərlərlə milli ədəbiyyatşünaslığımızda tənqidşünaslığın müstəqil bir elm sahəsi kimi əsasını qoymuşdur. K.Talıbzadə habelə Azərbaycanın kulturoloji fikir tarixinə həsr edilmiş çoxsaylı yazıların müəllifidir. Azərbaycan

mədəniyyəti tarixinə zəngin elmi, bədii və pedaqoji irs bəxş etmiş Talıbzadələr nəslinin layiqli nümayəndəsi olan K.Talıbzadə bu estafeti ləyaqətlə qorumuş, bu mirası ictimai-siyasi fəaliyyəti, əsərləri və tələbələri vasitəsilə xalqa çatdırmağa çalışmışdır.

K.Talıbzadənin elmi yaradıcılığının ən çox diqqət çəkən xüsusiyyətlərindən biri ədəbi tənqid problemi ilə bağlıdır. O, ilk dəfə olaraq Azərbaycan ədəbi tənqidini milli ədəbiyyatın tərkib hissəsi kimi təqdim etmiş və tənqidin sistemli şəkildə tədqiqatına nail olmuşdur. K.Talıbzadə Azərbaycan ədəbi tənqidinin ilk sistemli elmi tarixinin yaradıcısıdır. Belə ki, tənqidi elm səviyyəsinə yüksəldən akademik K.Talıbzadə özünə qədər olan tənqidi irsi yaradıcı və elmi şəkildə mənimsəyərək daha mükəmməl nəticələrə gəlmişdir. K.Talıbzadə görkəmli elm təşkilatçısıdır. O, Azərbaycan ədəbiyyatı klassiklərinin ədəbi irsinin tərtibi və nəşr edilməsində müstəsna xidməti olan şəxsdir. Milli ədəbiyyatın, mədəniyyətin dolğun şəkildə təzahürü olan K.Talıbzadə yaradıcılığında yalnız ədəbiyyatımız və onun mühüm yaradıcılıq problemləri deyil, bütövlükdə böyük türk mənəviyyatımız, milli şüurumuz, təfəkkürümüz öz əksini tapmışdır. Bu mənada da alimin yaradıcılığı misilsiz bir elmi məktəb və qiymətli mənbə kimi dəyərləndirilməlidir.

I fəslin üçüncü yarımfəsli **“Mədəniyyətin ictimai vəzifəsi, həyatla əlaqəsi və ədəbi irs problemi”** adlanır. Mədəni irsin varisliyinin istər milli, istərsə də bəşəri səviyyələrdə təminatı məsələsi bu gün daha aktual məsələ kimi qarşımızda durmuşdur. Heç şübhəsiz, mədəni irsin mühafizəsində varislik təminatı olmasaydı, bəşəriyyət belə bir mirasdan məhrum qalardı. Tarixən olduğu kimi, sovet hakimiyyəti illərində də bu problem bu və ya digər dərəcədə elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Azərbaycan alimləri də mövzuyla bağlı bir sıra maraqlı tədqiqatlar aparmışlar. Bunların içərisində K.Talıbzadənin mədəniyyətin ictimai vəzifəsi, həyatla əlaqəsi və ədəbi irs məsələləri ilə əlaqəli apardığı araşdırmalar da yer alır ki, yarımfəslin əsas mövzusunu da məhz onun problemə dair kulturoloji yanaşması təşkil edir.

K.Talıbzadənin sovet dövrü yaradıcılığında, onun əsasən klassik ədəbi-mədəni irsə orijinal mövqeyi diqqəti çəkirsə, 90-cı illərdən sonrakı yazılarında daha çox milli tariximizin qaranlıq səhifələrinin işıqlandırılması üstünlük təşkil edir. Konkret olaraq isə əsasən XX əsrin Azərbaycan mədəni həyatı kulturoloji yaradıcılıq sahəsi kimi K.Talıbzadənin elmi-nəzəri tədqiqatlarında dolğunluğu ilə öz əksini tapmışdır. XX əsrin əvvəllərindəki ədəbi-mədəni irsə münasibətdə obyektivlik və subyektivlik

amillərinin araşdırılması, tarixi və elmi-mədəni gerçəkliyin sovet ideoloji prinsiplərindən irəli gələn tədqiq və təhlil metodologiyası onun yaradıcılığı üçün xasdır.

K.Talıbzadə bir sıra elmi-tədqiqat əsərlərində ədəbi-mədəni irs probleminə geniş yer ayırmış və dövrün ideoloji tələbləri kontekstində baxıldıqda bir sıra orijinal və cəsarətli mülahizələr irəli sürmüşdür. K.Talıbzadə ədəbi-mədəni irsə olan münasibətinə belə bir kulturoloji istiqamət verir ki, hər bir xalqın öz mənəvi irsinin mühafizəsində özünəməxsus ənənəvi formaları vardır. Bu müxtəliflik bəşər mədəniyyətinin rəngarəngliyini təmin edir. Deməli, mədəniyyətlər müxtəlif yollarla irəliləyir. Bununla yanaşı bu inkişaf ancaq yeni sənət nümunələrinin yaranması ilə məhdudlaşmır, həm də klassik irsin müasir tərzdə dərk olunması ilə bağlıdır. Hər xalqın bədii irsi onun tarixini, dünyagörüşünü, mənəvi aləmini əks etdirir. Buna görə də bütün dövrlərdə xalq üçün daimi bədii və mənəvi qida mənbəyidir. Klassik irsin böyük əhəmiyyəti ondadır ki o, təkcə öz dövrünün görüşlərini, bədii zəkasını ifadə etmir. Klassik irsə həsr olunan tədqiqatlar elmi-nəzəri fikrin zənginləşməsində əhəmiyyətli rol oynayır. Bu gün sivilizasiyanın sürətli inkişafı ilə milli mədəniyyətlərin çarpışması, intellektual mədəniyyətlə mənəvi dəyərlərin qeyri-mütənasib yayılışı da K.Talıbzadənin bu mülahizələrinin nə qədər haqlı olduğunu təsdiqləməkdədir.

Dissertasiyanın **II fəsli "Azərbaycan kulturoloji fikir tarixinə münasibətin təzadlı məqamları: tarixi-müqayisəli təhlil və mədəniyyətə yeni baxış"** adlanır. Bu fəslin **"K.Talıbzadənin elmi-mədəni fəaliyyəti sovet dövrünün ideoloji prosesləri kontekstində"** başlıqlı ilk yarımfəslində qeyd edilir ki, K.Talıbzadənin elmi yaradıcılığının ən məhsuldar dövrü sovet hakimiyyəti dövrünə düşür. Müstəqillik dövrünün tələbləri kontekstindən baxıldıqda nə qədər tənqidi cəhətləri olsa belə, onun sovet dövründəki elmi fəaliyyəti bir sıra cəhətləri ilə ədəbi-mədəni irsimizin nailiyyəti sayılmalıdır. Ədəbiyyat tarixindən, ədəbi-tənqidin xronoloji izlənilməsi və qiymətləndirilməsindən tutmuş, mədəniyyət və incəsənətin müxtəlif problemlərinin təhlilinə qədər zəngin və çoxşaxəli bir kulturoloji irsi göz önünə gətirən bu yaradıcılığın əhəmiyyəti barədə mütəxəssis rəyləri, əsasən müsbətdir. Çünki onun elmi-mədəni irsi sadəcə filoloji məsələlərin tədqiqi ilə məhdudlaşmır, əksinə kulturoloji fikir tariximizin ən mühüm inkişaf mərhələlərini və xüsusiyyətlərini özündə ehtiva edir. Azərbaycanın ədəbi fikir tarixində elə bir hadisə və elə bir görkəmli yaradıcı şəxsiyyət yoxdur ki, K.Talıbzadə bu haqda fikir bildirməmiş

olsun. Bu münasibətə zamanın şərtləri və sıxıntıları kontekstindən elmi qiymət verərkən isə, K.Talıbzadənin hətta bir çoxlarının bacarmadığı və ya cəsarət tapmadığı necə bir məsuliyyətin ağırlığını öz üzərinə götürdüyünün şahidi oluruq. Sovet ideoloji nəzarəti yaradıcılığının bütün dövrlərində onu izlədiyi üçün, K.Talıbzadənin elmi obyektivlikdən ən çox uzaqlaşdığı mövzular XX əsrin əvvəlləri ilə bağlıdır.

K.Talıbzadə həmmüasirləri olan əksər elm adamlarından fərqli olaraq tədqiqatlarına fərqli bir istiqamət verməyi də bacarmış, elmi-tənqidi mülahizələrində mümkün olduğu qədər obyektiv mövqe tutmağa çalışmışdır. Onun tənqidi mülahizələrində qərəzli ideoloji tələblərdən irəli gələn ciddi yanlışlıqlar və qarayaxmalar da vardır, elmi cəhətdən əsaslandırılmış obyektiv qənaətlər də. Biz K.Talıbzadənin XX əsrin əvvəllərinin ədəbi, elmi, mədəni hadisələrinə, bu dövrün görkəmli simalarının yaradıcılığına müraciətinin sifarişli olmasından çox, onun şəxsi marağından və alimlik borcundan irəli gəldiyi qənaətindəyik. Çünki sovet dövründə inqilabın düşmənləri elan olunmuş Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə kimi ziyalıların elmi-mədəni yaradıcılıqlarının təhrif edilmiş şəkildə olsa belə elmi dövriyyəyə daxil edilməsində K.Talıbzadənin müstəsna xidmətləri vardır. Əziz Mirəhmədov, Qədim Mustafayev kimi sovet alimlərinin əsərlərində də XX əsrin əvvəllərinin mədəni həyatının elmi təsviri və təhlili yer almışdır. Lakin K.Talıbzadənin bu alimlərdən fərqli cəhəti özünü onun tənqidi görüşlərinin ikili və ziddiyyətli xarakteri ilə büruzə verirdi. K.Talıbzadənin əsərlərində qeyri-obyektivliklə yanaşı təqdim etdiyi mövzulara bir sevgi, rəğbət və təəssübkeşliyin olmasını da sezmək mümkündür. Bu mənada K.Talıbzadənin sovet dövrü yaradıcılığını və elmi-mədəni fəaliyyətini qənaətbəxş və təqdirəlayiq hesab etmək mümkündür.

II fəslin **“K.Talıbzadənin dil və mətbuat məsələlərində tənqidi-müqayisəli mövqeyi”** başlıqlı ikinci yarımfəslində vurğulanır ki, son yüzillikdə Azərbaycan mətbuat və ədəbiyyatında ziyalıları narahat etmiş əsas mövzulardan biri dil məsələsi olmuşdur. Dil məsələsi, xüsusilə də XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycanda ictimai-siyasi və mədəni həyatın çox müxtəlif sahələrini özündə cəmləşdirən bir amilə çevrilmişdi. Sovet dövründə də bu problemi araşdıran alimlər ötən əsrin əvvəllərində cərəyan edən dil mübahisələrinə diqqət yetirmişlər ki, bunlar içərisində akademik K.Talıbzadənin də öz mövqeyi vardır. Onun qənaətinə görə, dil problemi bütün dövrlərdə təkcə elmi, ədəbi-bədii xarakter deyil, habelə ictimai və siyasi səciyyə daşımışdır. Bu mövqeyə görə, dil məsələsi ona görə siyasi səciyyə daşıyırdı ki, bəzən Azərbaycan xalqı müstəqil bir xalq kimi, dili isə

müstəqil bir dil kimi inkar edilirdi. Xalqın özünü "qövm", "tayfa", hesab edənlər, dilini də "şivə", "Qafqaz şivəsi" adlandırır, "sənin ayrıca milli bir lisanın yoxdur" – deyə, onu öz milli zəminəsindən ayırmaq istəyirdilər.

K.Talıbzadənin fikrincə, müxtəlif siyasi təmayül və əqidələrə mənsub olanlar Azərbaycan dilini osmanlılaşdırmağa, farslaşdırmağa və yaxud ruslaşdırmağa çalışırdılar. Onların bir qismi Azərbaycanı islam aləmindən uzaqlaşdırmamaq üçün ərəb-fars təsirini gücləndirməyi təklif edir, başqa bir qrupu tərəddüdsüz osmanlılarla birləşməyi, vahid bir dildə – osmanlı dilində danışıb yazmağı irəli sürür, bir hissəsi də ruslaşdırmağa can atırdı. XX əsr mətbuatında bu təmayülləri əsaslandırmağa çalışan istənilən qədər imzaya və yazıya təsadüf etmək olar.

Eyni münasibəti K.Talıbzadənin dilə fərqli mövqedən yanaşan ədəbi cərəyanlar barədəki mülahizələrində də görə bilirik. Burada müəyyən qədər haqq qazandırılası tərəflər olsa da, sovet ideoloji basqısından doğan qərəzli mühakimələrə də rast gəlinir.

1905-ci il inqilabından sonra Azərbaycanda, xüsusilə də Bakıda mətbuat bumunun müşahidə edildiyini qeyd edən K.Talıbzadə, bunu uzun müddət mətbuatsızlıqdan korluq çəkmiş cəmiyyət üçün yeni bir fürsət kimi dəyərləndirir. Təbii ki, bu mətbuat bolluğu və rəngarəngliyi fərqli siyasi-ideoloji və ədəbi-mədəni düşüncə sahibləri üçün də geniş müzakirə və mübahisə meydanı açırdı. K.Talıbzadə də nəşr olunan qəzet və jurnalların böyük əksəriyyətinin Azərbaycan mədəniyyətində bir hadisə olmasını qeyd etməklə onların içərisində C.Məmmədquluzadənin naşiri olduğu "Molla Nəsrəddin" və Ə.B.Hüseynzadənin redaktorluğu ilə çap olunan "Füyuzat" jurnallarının fəaliyyətini xüsusi olaraq qiymətləndirmişdir.

K.Talıbzadə sovet dövrü yaradıcılığında nə qədər obyektiv olmağa cəhd göstərsə də, təbii ki, zamanın ideoloji diktəsindən imtina edə bilməmişdir. Bu həqiqətlərin etirafı K.Talıbzadənin müstəqillik dövrü baxışlarında da öz əksini tapmışdır. O, Azərbaycan dilinin saflığının qorunmasını təqdir edən bir tənqidçi kimi həm də bu dilin ümumtürk kontekstində araşdırılması və inkişafı tərəfdarı olmuşdur. O, vaxtilə müxtəlif qütblərə ayıraraq bir-birinə tamamilə zidd mövqelərdən təhlil və şərh etdiyi mətbuat orqanlarının Azərbaycan cəmiyyətindəki fəaliyyətlərini də danmırdı. Sovet dövründəki yaradıcılığından fərqli olaraq K.Talıbzadə müstəqillik dövrü baxışlarında Azərbaycan dili və mətbuatı sahəsindəki rəqabəti yalnız ideoloji barışmazlıq mövqeyindən deyil, həm də ümummədəni prosesin tərkib hissəsi kimi təqdim edirdi. K.Talıbzadə dil və mətbuat sahəsində müşahidə edilən müzakirə və mübahisələri mədəni

inkişafa təkan verən amil kimi dəyərləndirirdi. O da sələfləri kimi mətbuatı ictimai hafizə funksiyasını yerinə yetirən bir orqan, dili isə mədəniyyətin ən davamlı daşıyıcısı və milliyyətin təyinində ən mühüm bir amil kimi şərh edirdi. K.Talıbzadəyə görə dil və mətbuatın inkişafı uğrundakı mübahisələr Azərbaycan cəmiyyətini milli-mədəni intibaha aparan, ona istiqamət verən milli özünütəsdiqin və mədəniyyət quruculuğu prosesinin ayrılmaz bir tərkib hissəsi kimi araşdırılmalıdır.

II fəslin **"Kulturoloji fikrin yeni aspektləri: XX əsrin əvvəllərindəki mədəni proseslərə fərqli baxış"** başlıqlı üçüncü yarımfəslində bildirilir ki, Azərbaycanın yenidən istiqlaliyyətə qovuşması ilə mədəniyyət tariximizə münasibətdə baş vermiş dəyişikliklər nəticəsində elmi-nəzəri irsimizlə bağlı mövcud stereotiplər də aradan qaldırıldı və milli kulturoloji təmələ söykənən yeni baxışlar sisteminin əsası qoyuldu. Milli tariximizin ideoloji buxovlardan azad olması, mədəni irsimizin imperiya məngənəsindən qurtulması eyni zamanda Azərbaycanın istiqlaliyyəti, milli dövlətçiliyi uğrunda mübarizə aparmış mücahidlərin, həyatlarını xalqın maariflənməsinə, mədəni tərəqqisinə həsr etmiş mütəfəkkirlərin mədəniyyət tariximizdəki yerlərinin obyektiv və qərəzsiz mövqedən dəyərləndirməsinə yol açdı.

Azərbaycan mədəniyyət tarixinin son bir əsrinə aid elmi-mədəni prosesləri obyektiv tədqiq edərək milli irsi xalqa gerçək şəkildə çatdırmaq vəzifəsi bir sıra alimlərə həm keçmişimizə, həm də öz araşdırmalarına yenidən nəzər salmaq şansı verdi. Həmin alimlərdən bir qismi sovet dövründə "bilərəkdən" təhrif etdikləri mövzulara yenidən qayıtdılar və bu dəfə, buraxılmış səhvləri etiraf etməklə, tədqiqatlarında daha obyektiv olmağa çalışmaqla ata-babalarımızın ruhu qarşısında "günahlarını" yumaq kimi müqəddəs bir işə girişdilər.

Analitik təfəkkür imkanlarının, elmi yaradıcılıq enerjisinin hələ bitmədiyini nümayiş etdirən K.Talıbzadə sovet dövründə yazdıqlarının, xüsusilə, daha çox siyasi-ideoloji təsirlərə məruz qalmış əsərlərinin elmi-tənqidi təhlili üçün özündə güc tapa bildi. O, öz etirafları ilə, zəngin yaradıcılıq irsi ortaya qoymuş böyük bir alimlər nəslinin nümayəndələrinə nümunə göstərdi. Beləliklə də, 70 illik siyasi-ideoloji təzyiqlər üzündən yol verilmiş "səhvlərin" elmi-mədəni bir səviyyədə etirafı gənc tədqiqatçıların yoluna işıq saçdı.

Sevindirici haldır ki, sovet dövründə Azərbaycanın mədəniyyət tarixini araşdırmış, lakin bəlli səbəblər üzündən ideoloji sapıntılara yol vermiş K.Talıbzadə kimi alimlərin bir qismi həm özləri yanlışlıqları aradan qaldır-

mağa səy göstərdilər, həm də tələbələrini doğru istiqamətə yönəltdilər. Vaxtilə yaza bilmədikləri mövzuları elmi rəhbər olduqları doktorluq dissertasiyaları kimi təsdiqlədilər. Xüsusilə vurğulamaq lazımdır ki, K.Talıbzadə filoloji indeksli dissertasiya yazanlara elmi rəhbərliklə yanaşı, kulturoloji aspektli mövzularda araşdırma aparanlara da elmi məsləhətçi olmuşdur. Heç də təsadüfi deyildir ki, onun elmi məsləhətçi olduğu ən son doktorluq dissertasiyalarının mövzusu məhz XX əsrin əvvəllərinin, habelə cümhuriyyət dövrünün kulturoloji fikri ilə bağlı olmuşdur. Belə ki, M.A.Süleymanlının "XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri" adlı doktorluq dissertasiyasında vaxtilə təhrif edilmiş bir çox qaranlıq məqamlara aydınlıq gətirilir, Azərbaycanın yaxın tarixinin, milli düşüncəsinin, elmi-mədəni fikrinin qaynaqları və təməl prinsipləri tədqiq edilir. M.R.Əsədlinin "Y.Z.Talıbzadənin ictimai-siyasi və elmi-publisistik fəaliyyəti Azərbaycan mədəniyyət tarixi kontekstində" adlı doktorluq dissertasiyası isə K.Talıbzadənin sovet dövründə bir kəlmə belə yazmağa imkan tapmadığı bir mövzuya həsr edilmişdir. Elmi məsləhətçisi olduğu tədqiqat işlərinin mövzularından da göründüyü kimi, atası Abdulla Şaiqin və əmisi Yusif Ziya Talıbzadənin də qatıldıqları və öz çoxyönlü fəaliyyətləri ilə zəngin töhfələr verdikləri milli-mədəni intibah hərəkatı mövzusu K.Talıbzadəni yaradıcılığının bütün mərhələlərində düşündürmüş və narahat etmişdir.

Dissertasiyanın **III fəsli "Elmi-mədəni yaradıcılıq prosesləri tarixi-kulturoloji təcrübə kontekstində"** adlanır. Bu fəslin **"K.Talıbzadənin yaradıcılığında dramaturgiya və teatr məsələləri"** başlıqlı ilk yarımfəslində qeyd edilir ki, K.Talıbzadənin yaradıcılığında Azərbaycan teatrı və dramaturgiyasının inkişaf məsələləri də yer almış, bu mövzu onun bir sıra əsərlərinin tədqiqat obyektinə çevrilmişdir. Xüsusilə də, K.Talıbzadə özünün "XX əsr Azərbaycan tənqidi (1905-1917)" əsərində teatr və dramaturgiyaya da ayrıca bir bölmə ayırmış, Azərbaycan teatrı və dramaturgiyasının inkişaf məsələlərini araşdırmağa çalışmış, fikrimizcə, buna nail ola bilmişdir.

K.Talıbzadənin mədəniyyətin əksər sahələri ilə qırılmaz surətdə bağlı olan yaradıcılığında teatr və teatr tənqidinə dair maraqlı araşdırmalar mövcuddur. O, teatr sənətinin kollektiv növ olduğunu və yaxşı bir tamaşanın araya-ərsəyə gəlməsi üçün mütləq olaraq kollektivin hər bir üzvünün üzərinə böyük məsuliyyət düşdüyünü qəbul etdiyi üçün, o, teatr və dramaturgiyanı bir-birindən ayrılıqda araşdırılmağın əleyhinə gedərək öz tədqiqatlarında bu yolu tutmuşdur.

K.Talıbzadənin fikrincə, XX əsrin əvvəllərində tənqidi məqalələrin çoxunda tamaşalar dərindən, ətraflı və hərtərəfli təhlil olunmur, teatr sənətinin bir sıra xüsusiyyətləri nəzərdən qaçırılırdı. Bu cür nöqsanların olmasını bir tərəfdən teatr tənqidinin Azərbaycanda yenicə yaranmağa başlaması ilə, digər tərəfdən, bu sahədə fəaliyyət göstərən bəzi müəlliflərin ümumi nəzəri hazırlığının aşağı səviyyədə olması ilə əlaqələndirir. Lakin onun fikrincə, bu məqalələrdə nöqsanlar çox vaxt doğru, düzgün göstərilirdi və bu da təbii ki, teatr sənətinin inkişafına müsbət təsir göstərirdi. Sadalanan nöqsanlar isə əsərin müəlliflərindən tutmuş, tamaşanı hazırlayanlara, öz roluna hazır olmayan aktyorlara qədər hər bir sahəni əhatə edirdi. Aktyorların düzgün seçilməməsi, təcrübəsiz, istedadsız adamların səhnəyə çıxarılması da teatr mədəniyyətinin inkişafına mane olan amillərdən hesab olunurdu. Tamaşaların məzmunu ilə əlaqəsi olmayan süni mizanlar, tamaşaçıda gülüş doğurmaq xatirinə aktyorlar tərəfindən edilən oyunbazlıqlar, "yumruq davaları", artistlərin mətnə sərbəst yanaşmaları və sair resenziyalarda kəskin tənqid olunan hərəkətlər kimi göstərilir. K.Talıbzadənin qənaətinə görə, teatr tənqidini məşğul edən məsələlərdən biri də səhnə dilində kök salmış sünilik, qeyri-təbiilik idi. Ədəbi tənqid səhnədə təbii danışıq tərzinin pozulmasını aktyor ifasını realizmdən uzaqlaşdıran mühüm səbəblərdən biri hesab edirdi.

III fəslin **"K.Talıbzadənin muzeyşünaslıq fəaliyyətinin elmi, mədəni və tarixi aspektləri"** başlıqlı ikinci yarımfəslində vurğulanır ki, səmərəli muzey fəaliyyəti K.Talıbzadənin tərcümeyi-halında çox müstəsna bir əhəmiyyətə malikdir. Fəal elmi və mədəni yaradıcılıqla məşğul olan alim, ömrünün bir hissəsini muzey işinə həsr etmiş, bu sahədə fəaliyyətinin uğurlu alınması üçün əlindən gələni əsirgəməmişdir. Uzun illər Nizami adına Ədəbiyyat İnstitutunda rəhbər vəzifələrdə işləməsinə, məhsuldar elmi yaradıcılıqla məşğul olmasına, mütəmadi olaraq müxtəlif ictimai təşkilatlarda fəaliyyət göstərməsinə, elmi simpozium və konfranslarda elmimizi layiqincə təmsil etməsinə baxmayaraq, K.Talıbzadə atası Abdulla Şaiqin adını daşıyan muzeyin yaranmasında, onun dövlət statusu almasında, eksponatların toplanmasında və tərtib olunmasında, muzeyin fəaliyyətinin yeni tələblərə uyğunlaşdırılmasında, mövcud ekspozisiyaların müasir tələblər baxımından təkmilləşdirilməsində, fondların zənginləşdirilməsində, eləcə də muzeyə bacarıqlı, öz işini sevən işçilərin cəlb olunmasında müstəsna xidmətlər göstərmişdir.

Abdulla Şaiqin Mənzil Muzeyini Kamal müəllimin ən yaxşı əsəri hesab etmək olar. Və bu "əsərin" araya-ərsəyə gəlməsi ata ocağına, müqəddəs valideyn ruhuna, geniş anlamda isə Azərbaycan tarixinə,

Azərbaycan mədəniyyəti və ədəbiyyatına böyük sevginin, ülvi məhəbbətin nümunəsidir. K.Talıbzadə milli məfkurəmizin yaddaşında ilk növbədə Abdulla Şaiqin oğlu və Şaiq ocağının məşəlini tutan davamçı kimi qaldı... Özünün də dönə-dönə dediyi kimi, onun ən böyük xidməti şəxsi tədqiqatlarından daha çox, Abdulla Şaiq ədəbi irsinin bir küll halında yeni nəsillərə çatdırılması, Şaiq ocağının əbədi bir işıq mənbəyi kimi qorunub saxlanılmasından ibarət idi. Əgər qəbul etsək ki, muzeyşünaslıq – muzeylərin yaranması, elmi-ictimai fəaliyyəti, muzey işinin nəzəriyyə və metodikası, muzey memarlığının əsasları, muzeylərin müasir avadanlıq və eksponatlarla təchizi məsələləri ilə məşğul olan elm sahəsidir, o zaman K.Talıbzadəni əsl muzeyşünas hesab etmək olar. Və əgər onun şəxsiyyətinə bu prizmadan yanaşsaq, o zaman deyə bilərik ki, Abdulla Şaiqin adını daşıyan muzey K.Talıbzadənin məqsədyönlü fəaliyyətinin bəhrəsidir. Məhz belə bir fəaliyyətin nəticəsi idi ki, onun ədəbiyyatşünaslıq sahəsindəki xidmətləri ilə yanaşı muzey işinin təşkili yönündəki fəaliyyəti də həm dövlət rəhbərliyi, həm də geniş ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 13 avqust 1998-ci il tarixli fərmanı ilə Kamal Abdulla Şaiq oğlu Talıbzadə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

III fəslin **"Çağdaş Azərbaycan mədəniyyətinin aktual problemləri: vəzifələr və perspektivlər"** başlıqlı üçüncü yarımfəslində belə qənaətə gəlinir ki, elmi-mədəni fəaliyyətində çağdaş Azərbaycan mədəniyyətinin aktual problemlərinə münasibəti baxımından, biz K.Talıbzadəni yalnız ədəbi-filoloji sahə mütəxəssisi kimi deyil, həm də ümumilikdə incəsənət, dövri mətbuat, musiqi, məxəzşünaslıq, kitab tarixi, teatr sənətini tədqiq edən, bədii-estetik, ictimai-sosioloji problemləri öyrənən alim, muzeyşünaslıq fəaliyyəti ilə məşğul olan bir mədəniyyət xadimi hesab edirik. Çünki onun Azərbaycan milli-mənəvi mədəniyyət tarixinə həsr edilmiş əsərlərindən bəhs edən tədqiqatçılar da K.Talıbzadəni – ədəbiyyatşünas alimi, milli ruhun təkcə bədii söz sənətində yox, həm də mədəniyyətin digər sahələrində də maddiləşmiş yaddaşı aydın görə bilən ziyalı kimi xarakterizə edirlər.

Sonuncu yarımfəsildə K.Talıbzadənin ədəbi-bədii, elmi-mədəni qənaətləri və kulturoloji baxışları aşağıdakı müddəalar şəklində ümumiləşdirilir: a) Tənqid təhlil etdiyi əsərin səviyyəsindən yuxarıda dayanmalıdır. Əks halda onun təsirindən, nüfuzundan danışmaq artıqdır. b) Tənqidi tənqidsiz təsəvvür etmək çətindir. Əlbəttə, söhbət ancaq obyektiv, qayğıkeş, yazıçıya, oxucuya yardım əli uzadan tənqiddən gedir. Bu çatışmazlıq da müasir tənqidimiz üçün səciyyəvidir. Tənqidçilərimiz

hərtərəfli tənqidə yox, daha çox tərifə, hətta əsassız təriflərə meyl göstərirlər. Tənqid janrı bir növ tərif janrına çevrilir. c) Elə etmək lazımdır ki, yazıçı nüfuzu tənqidçi nüfuzuna mane olmasın, əksinə, bu iki yaradıcılıq sahəsi bir-birini tamamlasın, biri digərinin nüfuza minməsinə kömək etsin. ç) Həqiqi sənətkar xalqın irəlidə gedən sözçüsü olmalı, əsərləri real həyatı əks etdirməli, cəmiyyətin inkişafına xidmət etməlidir. d) Fərdi xüsusiyyətlərsiz, fərdi psixi keyfiyyətlərdən məhrum sənətkar şəxsiyyəti yoxdur. Odur ki, hər hansı yaradıcılığı qiymətləndirərkən yaradıcı şəxsiyyətin fərdi xüsusiyyətlərini də öyrənmək zəruridir. Sənətkarın rəftarını, mənəvi aləmini, emosionallıq dərəcəsini, istedad və qabiliyyətini, ehtiraslarını, meyllərini, bilik dərəcəsini, insanlara münasibətini və bunun səciyyəsini, xeyirxahlığını, qayğıkeşliyini, cazibədarlığını, ünsiyyət və mehribanlığını, başqa sözlə, təbiətinin, xarakterinin genişliyini meydana çıxarmaq yaradıcılıq prosesinin bir çox mürəkkəb məsələləri barədə daha dürüst və dəqiq fikir söyləmək, obyektiv nəticələrə gəlmək deməkdir. e) Ədəbiyyatımızın hazırkı mərhələsində tənqidi inkişaf etdirmək mədəniyyətimizin vacib məsələlərindən biridir. ə) Milli xüsusiyyətin kökləri müəyyən xalqın bədii təfəkkürünün xüsusiyyətlərindədir, onun mədəniyyətini təmsil edənlərin yaradıcılıq spesifikasındadır. Buna görə də keçmiş bədii irsi daima öyrənmək, mütərəqqi ənənələrə diqqətlə yanaşmaq lazımdır.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir, əldə edilmiş qənaətlərə istinadən təklif və tövsiyələr verilir. Bildirilir ki, K.Talıbzadə bugünkü nəslə zəngin mənəvi irs qoyub getmişdir. Bu mənəvi irsin, milli-əxlaqi dəyərlərin qorunması və gənc nəslə aşılanması təqdirəlayiqdir ki, bu məqsədlə aşağıdakı işlərin görülməsi məqsədəuyğundur:

– XX əsr mədəni inkişaf prosesinin önündə gedən Azərbaycan ziyalılarının mədəniyyət, incəsənət və ədəbiyyat mövzusunda yazdıqları əsərlərin tədqiq edilərək onlara elmi-tənqidi qiymət verilməsi mühüm əhəmiyyət kəsb edir. Tarixi təcrübədən müasir kulturoloji problemlərin həllində və bu təcrübi dərslərdən demokratik vətəndaş cəmiyyəti quruculuğunda istifadə edilməsi son dərəcə vacibdir ki, bu baxımdan Azərbaycanın elm və mədəniyyət xadimlərinin, o cümlədən K.Talıbzadənin kulturoloji irsinin tədqiqi və təbliğinə ehtiyac vardır.

– Vaxtilə “Türkləşmək, islamlaşmaq və müasirləşmək” düsturu altında inkişaf edən Azərbaycan cəmiyyəti üzünü Avropaya çevirmişdi. Belə bir inkişaf seyri nəticəsində Azərbaycan Rusiyanın əsarətindən

qurtulmuş və Avropanın demokratik prinsiplərinə dayanan müstəqil və mədəni bir dövlət qurmağa müvəffəq olmuşdu. Bu gün də müasir demokratik cəmiyyət quruculuğunda həmin tarixi irsdən faydalanmağımız müsbət nəticələr verə bilər ki, bu məsələdə də K.Talıbzadə kimi ziyalıların kulturoloji irsinə müraciət edilməsinə ehtiyac vardır.

– İnsan üçün əvəzsiz sayılan, onun həyatına məna verən, həyatın sınaqlarından çıxmağa kömək edən dayaqlar – mənəvi-əxlaqi dəyərlərdir. Dəyərlərin zaman keçdikcə dəyişməsi təbiidir, lakin əbədi, dəyişməyən dəyərlər də mövcuddur. Belə ki, bəşəriyyət yarandığı vaxtdan insan, onun həyatı, azadlıq idealı, məhəbbət, həqiqət, gözəllik, xeyirxahlıq və s. kimi dəyərlər bu günə qədər öz mütləq mənasını saxlamış, mədəni universalilər statusunu qazanmışdır. Onlara konkret insanın və mədəniyyətin verdiyi məna və məzmun fərqli olsa da, bu dəyərlər bütün mədəniyyətlərdə mövcuddur. Bu baxımdan müasir dövrdə milli-mənəvi meyarların müəyyənləşdirilməsi üçün K.Talıbzadənin elmi, kulturoloji, pedaqoji, ədəbi və bədii irsində şərhini tapmış mənəvi-əxlaqi dəyər anlayışının geniş təbliği qayğısına qalınmalıdır.

– Artıq 24 ildir imperiya buxovlarından azad olmuş Azərbaycanda milli məsələlərin həllinə ciddi diqqət yetirilsə də, unutmamaq lazımdır ki, qlobal siyasətlər cildini dəyişir və hər zaman yeni formalarda ortaya çıxır. Ona görə də imperiyadan xilas olub qloballaşma dalğalarının qoynuna atılan millətlər özünüdərk yolunda hələ çox sınaqlardan keçməli olacaqlar. Bu mənada milli immunitet qabiliyyətini mühafizə etmək yolları haqqında ciddi düşünmək lazımdır. Bu yola işıq salan məşəllərdən biri də XX əsr boyunca qazanılmış təcrübədir ki, burada K.Talıbzadənin xidmətlərinin elmi-tənqidi təhlili də əhəmiyyətli ola bilər.

– XX əsr Azərbaycan cəmiyyətinin mədəni tərəqqisi üçün çalışmış Azərbaycan ziyalılarının, o cümlədən K.Talıbzadənin mədəniyyət tarixindəki layiqli yeri müəyyənləşdirilmədən, əsərləri təhlil edilmədən, mədəniyyətşünaslıq irsi mənimsənilmədən kulturoloji elmlərin öyrənilməsi, tədrisi və sosial-mədəni həyata tətbiqi milli zəmindən, mənəvi dəyərlər sistemindən, bəşəri meyarlardan məhrum bir vəziyyətdə inkişaf etmiş olar. Hesab edirik ki, K.Talıbzadə kimi ideyaları tarixi təcrübənin sınağından çıxmış fikir adamlarının yaradıcılıq irsinin təbliği və bunun üçün də ilk növbədə əsərlərinin akademik və elmi şərhlərlə yenidən nəşri təxirəsalınmaz vəzifələrimizdəndir.

– Zəngin elmi-mədəni fəaliyyəti fərqli siyasi sistemlərə təsadüf edən K.Talıbzadə kimi şəxsiyyətlərin həyat və yaradıcılıqları daha dərindən

öyrənilməli, təşviq edilməli və onların kulturoloji irsinə elmi-tənqidi qiymət verilməsi yolu ilə tarixi yanlışlıqların təkrarlanmaması üçün variantlar üzərində düşünülməlidir.

– K.Talıbzadənin adının əbədiləşdirilməsi, onun həyat və fəaliyyətinin gənc nəsillərə örnək olacaq bir səviyyədə təbliği üçün əlimizdə olan bütün imkanlardan səmərəli istifadə etməliyik. Belə ki, əlyazmalarından tutmuş, şəxsi əşyalarına qədər onu xatırladacaq, fond və ekspozisiya nümunəsi ola biləcək hər bir şəxsi əşyasını mühafizə edərək xalqa nümayiş etdirməliyik. Düşünürük ki, bununla bağlı ən uyğun variant həmin yaradıcılıq nümunələrinin və əşyaların toplanaraq muzeydə mühafizə edilməsidir. Və təklif edirik ki, A.Şaiqin Mənzil Muzeyində bu eksponatlardan ibarət bir guşə yaradılsın. Bizcə bu, A.Şaiq irsinin daha təbii və faktiki materiallarla təbliği işinə də təkan verəcək, muzeyin öz işini məhz hansı ənənələr əsasında qurduğunu hər kəsə nümayiş etdirəcəkdir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Novruzov V.S. Tədqiqatçı – sənətkarın yaradıcılıq uğuru. “Mədəniyyət dünyası” elmi-nəzəri məcmuəsi, ADMİU, IX buraxılış, 2004, s. 382-385.
2. Novruzov V.S. “Mədəniyyət dünyası” mədəniyyətimizdə yeni hadisə kimi. “Filoloji araşdırmalar”, XX kitab, Bakı, Azərnəşr, 2004, s.275-278.
3. Novruzov V.S. Mədəniyyətimizin inkişafı naminə. “Mədəni-maarif” jurnalı, 2004, № 12 (166), s.8-10.
4. Novruzov V.S. Akademik Kamal Talıbzadənin elmi-nəzəri irsi T.Rəhimlinin araşdırmasında / “Mədəniyyət dünyası”, Eımi-nəzəri məcmuə, X buraxılış, Bakı, Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti, 2005, s.421-424.
5. Novruzov V.S. Kamal Talıbzadənin şəxsiyyətinin formalaşmasında mədəni mühit və varislik amili / “Mədəniyyət dünyası”, elmi-nəzəri məcmuə, XIV buraxılış, Bakı, Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti, 2007, s.115-124.
6. Novruzov V.S. Akademik Kamal Talıbzadə yaradıcılığında mədəniyyət məsələləri / The problems culturein thecreativity of Academic Kamal Talibzade, Ege Üniversitesi Türk Dünyası Araştırmaları Enstitüsü “Türk dünyası incelemeleri” dergisi / journal of Turkish World Studies, cilt /

volume: IX, sayı / issue: 1, Yaz / Summer-2009, Bornova-İzmir, s.137-144.
7. Novruzov V.S. Ədəbi irs probleminə K.Talıbzadənin kulturoloji yanaşması (AMEA-nın akademiki C.B Quliyev tərəfindən təqdim edilmişdir) // Azərbaycan Milli Elmlər Akademiyası, "Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi, Məruzələr, cild № 5, 2010, "Elm" nəşriyyatı, Bakı, s.132-138.
8. Novruzov V.S. Kamal Talıbzadənin muzeyşünasılıq fəaliyyətinin elmi, mədəni və tarixi aspektləri / "Mədəniyyət dünyası", elimi-nəzəri məcmuə, XX buraxılış, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2010, s.37-43.
9. Novruzov V.S. Mədəniyyətin ictimai vəzifəsi və həyatla əlaqəsinə dair. Azərbaycan arxeologiyası və etnoqrafiyası (AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu), 2010, № 2, s.153-158.
10. Novruzov V.S. Çağdaş mədəniyyət tariximizin tədqiqi məsələləri (K.Talıbzadənin "XX əsr Azərbaycan ədəbi tənqidi (1905-1917)" əsəri kontekstində) / Mədəni müxtəliflik sosial-siyasi dəyər kimi. Kulturoloqların II Milli Forumu (Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkil etdiyi Beynəlxalq elmi-praktiki konfrans, Bakı, 3 iyun 2010-cu il). Bakı: Elm, 2010, 504 s. (s.455-463).
11. Novruzov V.S. Milli-mənəvi özünüdərk prosesində varislik problemi (Kamal Talıbzadənin elmi-ictimai fəaliyyəti əsasında) / N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, "Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri" beynəlxalq konfransın materialları 29-30 noyabr Bakı-2010, Bakı, Elm, 2010, s.372-374.
12. Novruzov V.S. Kamal Talıbzadə və teatr tənqidi. "Müasir mədəniyyətşünaslıq" (Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq Üzrə Elmi-Metodiki Mərkəzi), Bakı, 2010, №4 (6), s.39-46.
13. Novruzov V.S. Abdulla Şaiqin Cümhuriyyət dövrü yaradıcılığına kulturoloji bir baxış // "Qobustan" sənət toplusu, 2011, № 2 (152), s.6-10.
14. Novruzov V.S. K.Talıbzadənin elmi yaradıcılığında varislik problemi. ADMİU-nun Elmi Əsərləri № 12, Bakı, 2011, s.67-77.
15. Novruzov V.S. K.Talıbzadənin elmi yaradıcılığında ədəbi və bədii dilə münasibət. AMEA-nın Məruzələri (Məqalə Azərbaycan MEA-nın akademiki N.M.Vəlixanlı tərəfindən təqdim edilmişdir). Bakı: Elm, 2011, № 3, s.133-139.

16. Novruzov V.S. Müasir Azərbaycan kulturoloji fikrində K.Talıbzadənin mövqeyi. "Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafı" mövzusunda I Bakı kulturoloji konfransının Proqramı və məruzənin mətni, 24 dekabr 2011-ci il.
17. Novruzov V.S. Kemal Talıbzadenin Azerbaycan Fikir Tarihine İlişkin Çalışmalarını Yeniden Yorumlamak. "Sosyoloji Yıllığı – 21", Değişim Sosyolojisi. Dünyada ve Türkiyede Toplumsal Degişme. İstanbul: Kitabevi, 2011, s.579-586.
18. Novruzov V.S. Abdulla Şaiqin Cümhuriyyət dövrü yaradıcılığına kulturoloji bir baxış. "Kimlik" elmi-ictimai dərgi, Sayı: 8, dekabr 2012, s.73-80.
19. Novruzov V.S. Muzey müəssisələrinə rəhbərlik təcrübəsi (K.Talıbzadənin muzeyşünaslıq fəaliyyəti nümunəsində). Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf. ADMİU-nun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın materialları. 21-22 dekabr 2012. Bakı: Təknur, 2012, s.459-464.
20. Novruzov V.S. K.Talıbzadənin çağdaş Azərbaycan ədəbi-tənqidi fikrinə kulturoloji baxışının bəzi məqamları. Multikulturalizm prosesləri qloballaşma şəraitində. Beynəlxalq elmi-nəzəri konfransın materialları (ADMİU-nun 90 illiyinə həsr olunur). Bakı, ADMİU, 2014, s.213-216.

**Васиф Сатдар оглы Новрузов**

**ВОПРОСЫ КУЛЬТУРЫ В НАУЧНО-ТЕОРЕТИЧЕСКОМ НАСЛЕДИИ АКАДЕМИКА КАМАЛА ТАЛЫБЗАДЕ**

**РЕЗЮМЕ**

Диссертация состоит из введения, трех глав, девяти подразделов, заключения и списка использованной литературы.

Во «Введении» обосновывается актуальность темы, излагаются научная новизна, цель и задачи, научно-теоретические и методологические основы, теоретическая и практическая значимость работы.

В I главе «Общественные и культурологические аспекты отношения К.Талыбзаде к национально-культурному наследию» исследуется роль культурной среды в формировании личности и дается ссылка на исторические источники по значению фактора наследственности. Дается культурологический анализ критико-литературной мысли в творчестве К.Талыбзаде. К.Талыбзаде представляется как основоположник литературной критики в Азербайджане. Изучаются научные взгляды К.Талыбзаде обобщаются выводы ученого связанные с проблемой литературной наследственности.

Во II главе «Противоречивые моменты отношения к истории культурологической мысли в Азербайджане: сравнительно-исторический анализ и новый взгляд» научно-культурная деятельность К.Талыбзаде изучается в контексте идеологических процессов советского времени. Раскрывается сравнительно-критическая позиция К.Талыбзаде в вопросах языка и прессы. Вносится ясность в новые аспекты культурологической мысли, в сущность отличающихся от иных взглядов К.Талыбзаде к культурным процессам начала XX века.

В III главе «Процессы научно-культурного творчества в контексте историко-культурологического опыта» большое место уделяется малоизученным культурным вопросам в творчестве К.Талыбзаде. В первую очередь исследуются вопросы драматургии и театра. Исследуются научные, культурные и исторические аспекты музееведческой деятельности К.Талыбзаде. Обобщаются мысли К.Талыбзаде об актуальных проблемах современной азербайджанской культуры. Вносится ясность в мысли, связанные с перспективными задачами в культурных процессах и даются рассуждения о перспективах азербайджанской культуры.

В заключительной части исследования обобщаются основные положения исследования и подводится итог проведенных исследований. Опираясь на выводы, полученные в результате исследования, даются предложения и рекомендации.

**Vasif Satdar oglu Novruzov**

**THE PROBLEMS OF CULTURE IN ACADEMICIAN KAMAL TALIBZADE'Z SCIENTIFIC- THEORETICAL LEGACY**

**SUMMARY**

The dissertation consists of an introduction, three chapters, nine sections, a conclusion and the list of the used literature.

In the introduction the actuality of the theme is substantiated, the scientific novelty, the purposes and propositions, the methodological basis, the theoretical- practical significance of the research work are presented.

In the first chapter entitled as "The Social and Culturological Aspects of K. Talibzade'z Attitude towards National- Cultural Legacy" the role of the cultural environment in the formation of K. Talibzade'z personality is paid attention and the historical sources on the significance of the inheritance factor are adressed to. Both the culturological analysis of the literary- critical opinion in K. Talibzade'z creative activity is presented and K. Talibzade is introduced as the founder of the literary criticism in Azerbaijan. K. Talibzade'z scientific views about the social duty of culture and its relation to the life are studied. His conclusions connected with the problem of the literary legacy are summarized as well.

In the second chapter entitled as "The Contradictory Periods of the Attitude to the History of Azerbaijan Culturological Thoughts: the Historical- Comparative Analysis and a New View to the Culture" K. Talibzade'z scientific- cultural activity is studied in the context of the ideological processes of the Soviet period. K. Talibzade'z critical- comparative position on the problems of the language and press is revealed. The essence of K. Talibzade'z different opinions on the new aspects of the culturological thoughts, especially, the cultural processes taking place at the beginning of the XX century are elucidated.

In the first chapter entitled as "The Processes of the Scientific- Cultural Work in the Context of the Historical- Cultural Practice" the problems of culture in K. Talibzade'z creative activity which have not studied much up to now are analysed widely. First of all the problems of dramaturgy and theatre are explored. The scientific, cultural and historical aspects of K. Talibzade'z activity in the museum management studies are investigated. K. Talibzade'z views about the modern Azerbaijan cultural problems are generalized. His views connected with the forthcoming problems in the cultural processes are elucidated and his opinions about the perspectives of Azerbaijan culture are described.

In the conclusion of the dissertation the principal propositions of the research work are summarized and the investigations carried out are summed up. The suggestions and recommendations referring to the conclusions obtained as a result of the research are presented.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

---

*На правах рукописи*

**ВАСИФ САТДАР оглы НОВРУЗОВ**

# ВОПРОСЫ КУЛЬТУРЫ В НАУЧНО-ТЕОРЕТИЧЕСКОМ НАСЛЕДИИ АКАДЕМИКА КАМАЛА ТАЛЫБЗАДЕ

**6219.01 – Культурология и её общие вопросы**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание учёной степени доктора
философии по искусствоведению**

**ВАКУ – 2015**